◆ **Məzahir Hüseynzadə** ◆ **Osman Fərmanoğlu**

## Deyişmə

**Məzahir Hüseynzadə**

Yenə də dağlara duman sis gəlir,
Qoy gəlsin dolayda azan deyiləm.
Ağlıma deyənlər, qələmdən gülür
Ürəyim deməsə, yazan deyiləm.

**Osman Fərmanoğlu**

Paşam, çox düşmüşəm dumana, çənə
Alın yazısını pozan deyiləm...
Köhnə havalarda əsərək yenə
Olandan deyirəm, susan deyiləm.

**Məzahir Hüseynzadə**

Bir əsər- əlamət qalmayıb ərkdən
Yaxşı ki, təpərim düşməyir həkdən
Yellənən simlərim, yellənir kökdən
Mizrabla gül vuran ozan deyiləm.

**Osman Fərmanoğlu**

Vaxtında sözümü demədim bərkdən,
Çəkib endirildim Babəktək Ərkdən,
Yüz ələyən ola xəlbir, ələkdən,
Yenə də səsimi qısan deyiləm.

**Məzahir Hüseynzadə**

Yollarım əzilib, xıncım xıncımdı,
Yanıb külə dönən saç qaxıncımdı,
Misralar yıxılan dar ağacımdı,
Özümü şeirdən asan deyiləm.

**Osman Fərmanoğlu**

Baş giley eyləyər saç vəfasıza,
Lil gətirən sular neylər susuza.
İndi dar nə gəzir, gedirlər duza,
Mən ayaq altını qazan deyiləm.

**Məzahir Hüseynzadə**

Ömür bura qədər, birtəhər dözdü,
Gülməyin, hədəfim ən azı yüzdü,
Bunlar zarafatdı, adicə sözdü,
Hələ gizlindəyəm ad san deyiləm.

**Osman Fərmanoğlu**

Düşünmə şairin hər sözü haqdı,
Yüz deyən adaşım yalançı çıxdı.
Daha oynadığım "aşıq- aşıqdı",
Hər hərcayı sözə qızan deyiləm.

**Məzahir Hüseynzadə**

Çox gördük dünyada, dadar, doymazı,
Biri yağ içində, biri tamarzı,
Gedirəm sabaha, alnımda yazı,
Yazılan yazılıb, pozan deyiləm.

**Osman Fərmanoğlu**

Ocaqdan gəlmədir gözün toxluğu,
Yoxun varlığıdır, varın yoxluğu..
Heç vaxt sulamadım yuxa qulağı,
Qapaqsız qaynayan qazan deyiləm.

**Məzahir Hüseynzadə**

Açılıb yaxası, sözün düymələ,
Sən özün açmışdın, özün düymələ,
Mən də ürəyimi, yazıram belə,
Axı *Məzahir*əm Osman deyiləm.

**Osman Fərmanoğlu**

Yaxasız köynəkdi, nə düymələmə,
Düyməsiz aləmdən düymə diləmə,
Öyünüb Məzahir, Məzahir, demə,
Bil mən də sonuncu *Osman* deyiləm.